# BAYRAM ALLAHVERDİYEV – 80

***Xəlil İsmayılov***
*BDU-nun Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının müdiri, Əməkdar mədəniyyət işçisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor*

Həyat hər kəsə bir ömür verir. "O ömür mənalı hesab olunur ki, o, xalqa gərəkli hesab olunur" - deyib müdriklərimiz.

Xalqa gərəkli olan, onun adını, yerini müəyyənləşdirən və əbədiləşdirən isə mədəniyyətdir. Milli inkişafı mədəniyyətsiz, onu da elmsiz və kitabsız təsəvvür etmək olmaz. Tarixi yaşatmaqda və yaratmaqda kitab qədər qüdrətli vasitə yoxdur. Bəşər övladı yarandığı gündən biliyə can atır. Bilik insanın yaşamaq, yaratmaq, inkişaf etmək uğrunda apardığı mübarizənin əsas vasitəsidir. Biliksiz insan təbiət və cəmiyyət hadisələrilə mübarizədə gücsüzdür. İnsan yaranır, bilmədiyi şeylərdən qorxur, bilik isə hər cür qorxuya qalib gəlməkdə insana kömək edir. Cəmiyyətdə yaşamaq, cəmiyyətin üzvü olmaq, onun inkişafına öz töhfəsini vermək, mənəvi həyatını zənginləşdirmək, tərbiyə və təhsil prosesində yaxından iştirak etmək, elmə yiyələnmək insandan daim yeniləşən, təkmilləşən, daim dinamik inkişafda olan əsaslı elmi bilik tələb edir.

Kitab insana bilik verməklə yanaşı, onu tarixi keçmişə aparır, bəşəriyyətin tarixi, keçdiyi yol haqqında, əcdadları haqqında, dünyanın görkəmli alimləri, yazıçıları, incəsənət və elm xadimləri haqqında ətraflı məlumat verir. Görmədiyi, eşitmədiyi şəxsiyyətlər, onların fəaliyyəti, əsərləri və tərcümeyi-halları ilə tanış edir. Dünyanı təlatümə salan təbiət hadisələri, müharibələr, dövlət başçıları, görkəmli sərkərdələrin fəaliyyətini göz önündə canlandırır. Beləliklə, kitab bəşəriyyətə keçmişi xatırlatmaqla, bu günü, müasirliyi öyrənməkdə, gələcəyi proqnozlaşdırmaqda kömək edir. Kitab bəşəriyyətin yaratmış olduğu fikir və ideyaların, nəzəriyyələrin, konsepsiyaların və elmi kəşflərin uzun bir müddət üçün insanlara çatdırmağın əsas vasitəsidir. Kitab bütün dini təlimlərin yaranmasında və təbliğində iştirak etmiş, bütün müqəddəs dinlər kitablar şəklində insanlara təqdim edilmişdir.

Kitab bu mənada xalqın varlığının ən yaxşı göstəricisi olmaqla yanaşı, həm də, onun sabaha, gələcəyə daşıyıcısıdır. O, milli dəyərlərin, intellektual varlığın toplusu və yeni nəslə ötürücüsü kimi mühüm bir missiyanın əvəzsiz vasitəsidir.

Bu yöndə taleyini kitaba bağlayan, onu öyrənməklə, xalqa xidmət edən insanların, xüsusilə, kitabşünasların xidməti əvəzsizdir. Böyük Çin mədəniyyətinin sistemli inkişafında kitabşünas alim Qan Qunun xidmətləri çox böyükdür. Elmlərin və yazılı-intellektual bilik sərvətləri sisteminin yaradılmasını təmin etməklə, bu böyük alim millətinin ən azı üç minillik bir mədəniyyətinin tarixini yazmaqla, cəmiyyətin gələcək inkişafına, tərəqqisinə, istiqamət vermişdir.

Azərbaycanda da kitab və kitabşünaslıq elminin tarixi zəngin və qədimdir. Taleyini kitabşünaslığa bağlamış insanlar onun inkişafı üçün çox böyük işlər

görmüşlər. Belə alimlərdən biri də Azərbaycan kitabşünaslığının yaranmasında və inkişafında böyük zəhməti olan tarix elmləri doktoru, professor Bayram Vəli oğlu Allahverdiyevdir.

Azərbaycan xalqının milli sərvəti olan doğma BDU-dan ayrı həyatı və fəaliyyəti təsvir edilməyən, Azərbaycan elmi və təhsilinin, ali pedaqoji fikrinin öncül simalarından biri, görkəmli kitabşünas alim, bacarıqlı elm və təhsil təşkilatçısı, dəyərli ziyalı, tarix elmləri doktoru, professor Bayram Vəli oğlu Allahverdiyevin 80 yaşı tamam olur. Bayram Vəli oğlu Allahverdiyev 1938-ci il yanvarın 3-də Qərbi Azərbaycanın Loru-Pəmbək bölgəsinin Arçut kəndində kəndli ailəsində dünyaya göz açmışdır. 1962-ci ildə Azərbaycan Dövlət Universitetinin Kitabxanaçılıq (indiki Bakı Dövlət Universitetinin Kitabxanaçılıq və informasiya) fakültəsini bitirmişdir. 1962-64-cü illərdə Qərbi Azərbaycanın Loru-Pəmbək bölgəsinin Arçut kəndində klub müdiri vəzifəsində çalışmış, 1964-67-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun əyani aspiranturasında təhsil almışdır. 1968-ci ildə Milli Elmlər Akademiyasının Dil və ədəbiyyat İnstitutunda kiçik elmi işçi vəzifəsində işləmişdir.

Professor Bayram Allahverdiyev 1968-ci ildən Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsində çalışır. O,1968-1992-ci illərdə BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasında dosent və professor vəzifələrində, 1992-ci ildən 2012-ci ilə qədər Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri vəzifəsində çalışmışdır. Alim hazırda Kitabşünaslıq və nəşriyyat işi kafedrasının professoru vəzifəsində çalışır.

Professor B.Allahverdiyev 1968-ci ildə "Orta əsr Azərbaycan Kitabı (XI-XVIII əsrlər)" mövzusunda namizədlik dissertasiyasını, 1991-ci ildə isə Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetində "Azərbaycan Respublikasında texniki kitab nəşri: əsas mərhələlərin tədqiqi və inkişaf ənənəsi (1920-1985-ci illər)" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmiş, müvafiq olaraq tarix elmləri namizədi və tarix elmləri doktoru alimlik dərəcələri almışdır.

Professor Bayram Allahverdiyev Azərbaycanda ilk dəfə əlyazma kitablarının yaranması, tərtibatı və yayılması xüsusiyyətlərini aşkara çıxarmışdır. Azərbaycan kitabının tipologiyası, Azərbaycan texniki kitabının nəşri, formalaşması və tipologiyasını tədqiq və inkişaf etdirmişdir. Alimin elmi rəhbərliyi ilə 2 nəfər fəlsəfə doktoru yetişmişdir.

Professor B.Allahverdiyev uzun illərdir ki, kitab və kitabçılıq işinin müxtəlif problemləri üzrə elmi əsərlər, məqalələr, kitablar, monoqrafiyalar, dərsliklər, dərs vəsaitləri yazır və nəşr etdirir. Kitabın, ümumiyyətlə, Azərbaycan kitabının öyrənilməsi və inkişafında alimin böyük rolu vardır. B.Allahverdiyev tərəfindən indiyə qədər kitab və kitabçılıq işinin müxtəlif məsələlərinə, aktual problemlərinə dair 120-dən çox elmi məqalə, həmçinin "Kitablar haqqında kitab" (1972), "Kitabşünaslıq" (1974), "Müasir mərhələdə kitab ticarətinin təşkili" (1996), "Ümumi kitab tarixi" (2003), "Bakı Dövlət Universitetinin nəşriyyatçılıq fəaliyyəti" (2010), "Kitabşünaslığın əsasları" (2010) və s. əsərləri çapdan çıxmışdır.

Alimin 2017-ci ildə “Kitabın tipologiyası” adlı yeni sanballı elmi monoqrafiyası çapdan çıxıb. 564 səhifədən ibarət olan monoqrafiya özündə giriş, 10 fəsil, nəticə və ədəbiyyat siyahısı hissələrini birləşdirir. Bir daha qeyd edirik ki, Azərbaycan kitabşünaslığına qiymətli töhfələr vermiş, BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin nəzdində Kitabşünaslıq və nəşriyyat işi şöbəsinin açılmasında xüsusi xidmətlər göstərmiş, müvafiq sahəyə dair dərslik, dərs vəaitləri, tədris-metodik vəsaitlər, monoqrafiyalar, məqalələr yazmış professor B.Allahverdyevin bu yeni sanballı, müasir elmşünaslığın qarşıya qoyduğu tələblərə uyğun olaraq qələmə alınmış monoqrafiyasında ilk dəfə kitabın tipologiyasının elmi-nəzəri və təcrübi problemləri şərh edilir. Burada kitabın növləri, başqa sözlə, sənədin növləri, tipləri və nəşr tiplərini əmələ gətirən əlamətlər, onların xüsusiyyətləri, prinsipləri öz əksini tapmışdır. Kitabda eyni zamanda ayrı-ayrı elm sahələri üzrə kitab nəşri, kitab tiplərinin və nəşr tiplərinin yaranması və inkişaf xüsusiyyətləri əhatə edilir. Burada, həmçinin ictimai-siyasi, elmi-texniki, kənd təsərrüfatı, tibb, təhsil, bədii ədəbyyat və ədəbiyyatşünaslıq, incəsənət və sənətşünaslıq üzrə kitabları çapdan buraxan nəşriyyatlar, kitab tərtibçiləri, müəlliflər, redaktorlar haqqında da kifayət qədər məlumat verilir.

Monoqrafiyada başlıca məqsəd Azərbaycan kitabının tiplər üzrə nəşrini sistemləşdirən amilləri meydana çıxarmaq, kitabın nəşr tipləri üzrə buraxılmasında iştirak edən nəşriyyat, təhsil müəssisələri və elmi idarələrin fəaliyyyətlərini təhlil etmək kitab və nəşr tiplərinin elm, texnika, istehsalat və təhsilin inkişafında yerini və rolunu müəyyənləşdirmək məqsədi ilə ilk dəfə olaraq bir sıra elmi-nəzəri və təcrübi problemlərə yönəldilmiş yeni elmi fikirlər irəli sürmüş və kitabın elmi tipologiyası baxımından elmi dövriyyəyə çıxarılan elmi konsepsiyalar irəli sürülmüşdür.

*Qeyd: professor B.V.Allahverdiyevin yuxarıda haqqında bəhs etdiyimiz “Kitabın tipologiyası” adlı fundamental monoqrafiyası haqqında bu sətirlərin müəllifi və BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının müdiri, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, pedaqogika üzrə fəlsəfə doktoru, dosent N.İ.İsmayılov tərəfindən “Azərbaycan” qəzetinin ....tarixli...nömrəsində çap etdirilən“.............” adlı irihəcmli məqlədə geniş şərh verildiyindən təkrarçılıq nöqteyi-nəzərindən bu yazımızda daha ətraflı bəhs etməyi məqsədəuyğun hesab etmirik.*

Bu fundamental monoqrafiya haqqında yazıdakı fikirlərimizi ümumiləşdirirək, hesab edirik ki, hazırki informasiyalaşdırılmış cəmiyyət şəraitində Azərbaycan kitabşünaslıq elmi, jurnalistika sahəsi və mədəniyyət tarixi üçün böyük elmi-nəzəri və metodoloji əhəmiyyət kəsb edən bu əsər müasir elmşünaslığın ciddi tələbləri kontekstində yazılması, əhatə etdiyi problemlərin fundamentallığı, elmi-konseptual mahiyyəti etibarilə daim xüsusi aktuallıq kəsb edəcəkdir.

Bayram müəllim qabaqcıl təhsil idarəçisi, ali təhsil prosesinin mahir bilicilərindən biri olaraq 20 ildən çox kafedra müdiri vəzifəsində çalışmış və doğma Kitabxanaçılıq-informasiya fakültəsinin idarəçiliyi prosesinin olduqca çətin və məsuliyyətli yükünün böyük bir hissəsini şərəflə öz çiyinlərində daşımışdır.

Mən hesab edirəm ki, Bayram müəllim BDU-nun aparıcı tərkib hissələrindən biri olan Kitabxanaçılıq-informasiya fakültəsinin tarixinə sütun şəxsiyyətlərdən biri kimi artıq həkk olunmuşdur.

Qeyd etdiyim kimi, Bayram müəllim xaraktercə ötkəm, sərt, işində prinsipal, eyni zamanda çox sadə, ürəyitəmiz, xeyirxah, səxavətli bir insandır. Bu xüsusiyyətlər onu xeyirxahlığı ilə prinsipallığı, sadəliyi ilə ötkəmliyi, alimliyi ilə insanlığı, müəllimliyi ilə ziyalılığı, zəhmi ilə ədalətli çulğalaşan bütöv şəxsiyyət kimi xarakterizə edir.

Bayram müəllim Azərbaycanda kitabşünaslıq elminin inkişafında yüksək xidmətləri olan böyük alimdir. Onun əsas elmi istiqaməti kitab tarixi, kitabçılıq işi, kitab nəşri problemləridir. Onun 1968-ci ildə müdafiə etdiyi namizədlik (Orta əsr Azərbaycan kitabı (XI-XVIII əsrlər)), həm də 1991-ci ildə Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetində müdafiə etdiyi doktorluq (Azərbaycan Respublikasında texniki kitabın nəşri: əsas mərhələlərin tədqiqi və inkişaf ənənəsi (1920-1985-ci illər)) dissertasiyalarının əhatə problemləri, eləcə də qələmə aldığı məqalələri, monoqrafiyaları, dərslik və dərs vəsaitləri, bütün elmi əsərləri, layihələri, təklifləri kitabşünaslıq və biblioqrafiya elmlərinin inkişafı və fundamental əsaslarının möhkəmləndirilməsinə əhəmiyyətli töhfələr vermişdir.

Professor Bayram Allahverdiyevin elmi nüfuzu ölkəmizin sərhədlərindən kənarda da yüksəkdir. Onun, xüsusilə, görkəmli sovet və rus alimləri ilə (İ.O.Morqenstein, A.A.Qreçixana, A.U.Çerniyak, K.Abramov, T.Karatigna, Korşinov, Y.Stolyarov və b.) uzun müddətli şəxsi, elmi-nəzəri və təcrübi aspektli əlaqələri mövcud olmuşdur.

Professor Bayram Allahverdiyev fakültənin ictimai fəaliyyətində də öz məhsuldarlığı ilə seçilir. O, “Kitabşünaslıq və nəşriyyat işi” elmi-nəzəri və təcrübi jurnalının təsisçisi və baş redaktoru, “Kitabxanaşünaslıq və biblioqrafiya”, “Kitabxanaşünaslıq və informasiya”, “Kitabşünaslıq və redaktor sənəti” elmi-nəzəri və təcrübi jurnallarının redaksiya heyətinin üzvü, eləcə də “Dil və ədəbiyyat” beynəlxalq elmi-nəzəri və praktiki jurnalının redaksiya heyətinin üzvü, Fakültə Elmi Şurasının üzvüdür. Ümumiyyətlə, professor B.Allahverdiyev Azərbaycan dövlətçiliyinə, ümummilli lider H.Əliyevin və onun siyasi xəttinin layiqli davamçısı, möhtərəm prezidentimiz cənab İlham Əliyevin, milli dövlətçiliyimizin əsas siyasi ideoloji dayağı olan Yeni Azərbaycan Partiyasının siyasi xəttinə möhkəm sədaqəti ilə seçilən alim-vətəndaşdır.

Bir kitabxanaşünas alim olaraq, Bayram Allahverdiyevin mənədoğma və daha yaxın olan bir cəhəti də onun çoxillik tədqiqatçılıq fəaliyyətinin nəticəsi olaraq ortaya qoyduğu əsərlərində, kitabşünaslıq, kitab tarixi, kitabçılıq işi, nəşriyyat işi problemləri ilə yanaşı apardığı ümumiləşdirmələrdə, həm də kitabxanalar, kitabxana işi, kitabxanaşünaslığın müxtəlif istiqamətləri ilə yanaşı *əlaqəli* tədqiqatlarıdır. Bu mənada professor Bayram Allahverdiyev kompleks fəaliyyətə malik obyektiv alim olaraq mədəniyyətin qoşa qanadı kimi kitab və kitabxanaların inkişafına obyektiv yanaşması olan bir tədqiqatçıdır.

Alim göstərir ki, kitabın yaranması ilə yanaşı, kitabxanaların yaranmasının da bəşəriyyətin ən böyük kəşfi olan yazının və kitabın yaranması ilə sıx əlaqədar

olduğundan kitabxananın tarixini məhz yazının və kitabın tarixi ilə, kitabın yaranması üçün istifadə edilən yazı materiallarının tarixi ilə əlaqədar öyrənilməsinin zəruri hesab edilməsidir. Alim qeyd edir ki, bəşəriyyət kitabı yaratmaqdan ötrü daşdan, ağacdan, tunç və mum lövhələrdən, gildən, papirusdan, perqamentdən və nəhayət, kağızdan istifadə etmişdir. Beləliklə, tarixəqədərki dövrdən zəmanəmizə qədər daş, ağac, tunc və mum lövhələr, gil,papirus, perqament və kağız üzərində yazılmış kitablar saxlayan kitabxanalar mövcud olmuşdur.

Kitabşünas alimin bu yanaşması müasir elmşünaslığın tələbləri kontekstində yüksək qiymətləndirilən ümdə məziyyətdir.

Bayram müəllim daim yerli və xarici mətbuatda Azərbaycanda baş verən sosial-ictimai proseslərə dair öz obyektiv alim-ziyalı mövqeyini ifadə edən çoxsaylı dövri məqalələrlə çıxış edir.

Bayram müəllim gözəl ailə başçısıdır. Onun övladları dəyərli ziyalılar, xalqına, millətinə layiqli insanlardır. İsmayıl müəllim bu baxımdan da xoşbəxt insandır. O, ailəsi üçün səmimi həyat yoldaşı, qayğıkeş ata, mehriban babadır.

Ümumiyyətlə, xalqımız öz möhtəşəm səmimiyyət və istedada malik qüdrətli şəxsiyyətləri ilə dünya elminin, mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin inkişafına qiymətli töhfələr vermiş, onu zənginləşdirmiş, mədəniyyətinin milli özünəməxsusluğu ilə hər zaman ən yüksək mövqelərdə dayanmışdır. Qətiyyətlə deyə bilərik ki, xalqımızın bu möhtəşəm mədəniyyət elitasında onun ayrılmaz parçası olan doğma Qərbi Azərbaycan elinin də müstəsna payı vardır. Bu qədim və qəhrəman torpağın mərd insanları, yüksək intellektual potensiala malik şəxsiyyətləri, görkəmli alimləri, nəhəng mütəfəkkirləri, filosofları, qabaqcıl ruhlu, mütərəqqi ziyalıları, əzəmətli qələmə, möhtəşəm ilham şahpərinə malik şairləri, aşıqları, yazıçıları Azərbaycan xalqının incilər xəzinəsində böyük yer tutur.

Bu elin, əzəli və əbədi möhtəşəmliyə malik qəhrəman yurdun vüqarlı, əzəmətli, dəyanətli, ləyaqətli övladlarından biri olan professor Bayram Allahverdiyev mənsub olduğu xalqına məxsus ən dəyərli məziyyətləri özündə cəmləşdirən bir  şəxsiyyət olaraq ətrafında, çevrəsində, işlədiyi kollektiv arasında dərin hörmət qazanıb. Onun səmimiyyəti, insanlıq keyfiyyətləri onu tanıyan hər kəsə bəllidir.Bayram müəllim, ilk növbədə, mənim üçün dəyərli müəllimdir. Mən onun simasında Azərbaycan müəlliminin ən gözəl məziyyətlərinin ehtiva olunduğu qənaətindəyəm.

“Dünanın xoşbəxti qəlbinin işığında yol gedən adamlardır” –demişlər müdriklər. Bu yolda gedənlər şəksiz istedada, biliyə, elmə, intellektə, əzəmətə, məğrurluğa, dəyanətə, şəxsiyyətə, şan-şöhrətə malikdirlər. Bu anadangəlmə fitri istedadlar öz içərilərindən alışaraq çıraq kimi yanır, işığını öz dibinə yox başqalarının yollarına salır, talelərə, ömürlərə, günlərə paylayırlar.

Alim ömrü də belədir. O, fəaliyyət göstərdiyi elm sahəsinin zirvəsinə qalxaraq peşəkar cığırdaş, gələcək nəsillərə örnək olur. Burada görkəmli filosof Şopenhauerin sözünü xatırlamaq yerinə düşür: “Böyük zəkalar bəşəriyyətə nə verməlidirsə, onu artıq gənclikdən toplamağa başlıyırlar”. Məhz professor B.Allahverdiyev belə insanlardandır - öz yolu ilə, zəhməti, dəyanəti, mübarizliyi,

ağılı, intellekti, humanizmi, obyektivliyi ilə 80 illik həyatının uşaqlıq, ilk gənclik dövrlərindən başlayaraq bu günə - müdriklik pilləsinə qədər daim çıraq kimi yanmış, bu çırağın işığını özündən daha çox öz başqalarının yoluna salmış, ayrı-ayrı adamların taleyinə, ömrünə yönətmişdir. Bu, hər insana, hər müəllimə, alimə, pedaqoqa nəsib olan xoşbəxtlik deyil. Mən uzun illər bu görkəmli alim, dəyərli insan, müdrik ağsaqqalla birgə işlədiyim, fəaliyyət göstərdiyim, birgə uzun yollar getdiyim, səmimi yoldaşlıq etdiyim, çoxlu xatirələrim, ülvi təəssüratlarım olan olan bir insan kimi qətiyyətlə deyə bilərəm ki, məhz Bayram Allahverdiyev bu xoşbəxtliyə, yuxarıda qeyd etdiyimiz kimi hər kəsin çata bilmədiyi səadətə yetişə bilən bir insan, alim, vətəndaşdır.

Bəli, VƏTƏNDAŞ! Bayram Allahverdiyev öz xalqını, millətini dövlətini, dövlətçiliyini sevən, xalqın, dövlətin maraqlarını daim hər şeydən üstün tutan, iştirak etdiyi əksər elmi-ictimai məslislərdə, konfranslarda, söhbətlərdə, diskussiyalarda alovlu vətənpərvər kimi çıxış edən alim-vətəndaşdır. Onun erməni daşnaklarının Vətən topraqlarımıza təcavüzünə qarşı öz çıxışları, tutarlı faktlara, əsaslı dəlillərə söykənən çıxışları ilə nəinki ölkəmizdəki, vətənimizin sərhədlərindən kənarda iştirak etdiyi çoxsaylı tədbirlərdə dünya birliyinə Azərbaycan həqiqətlərinin çatdırılmasında bir alim olaraq müstəsna xidmətləri olmuşdur.

Bayram Allahverdiyev etibarlı dostdur. Onun dostluğu ciddi səmimiyyətə, dərin mənəvi ideallara əsaslanır. Bayram müəllimin dostluğa sədaqətinin, etibarının, vəfasının onunla yoldaş olduğum uzun yollarda, eləcə də qürbətdə, o cümlədən işdə, kollektivdə dəfələrlə şahidi olmuşam. O, halal münasibətə, halal çörəyə hədsiz hörmət qoyan, xalqın, millətin uca dəyərlərinə ciddi ehtiram göstərən müdrik bir şəxsiyyətdir.

Bayram Allahverdiyevin səmimi, təmənnasız dostluğu haqqında saymaqla bitməyəcək qədər olan təəssüratlarımdan yalnız mənim üçün ən əlamətdar olan biri haqqında qeyd edəcəm; 1983-cü ildə Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetində namizədlik dissertasiyamı müdafiə edərkən Bayram müəllimin necə səmimi yoldaş, etibarlı bir dost olmasının deyərdim ki, ən böyük təəssüratını yaşamışam. Bayram müəllim həmin məclisdə müdafiə şurasının üzvü olan keçmiş ittifaqın ən nüfuzlu kitabxanaşünas, kitabşünas, mədəniyyətşünas, tarixçi alimlərinin, nəhəng elm adamlarının qarşısında mənim müdafiəm haqqında söylədiyi əsaslandırılmış, tutarlı dəlillərə söykənən çıxışı çoxillik dostluğumuzun təmənnasızlıq üzərində qurulan bünövrəsinin ilk addımlarından biri idi...

Bayram Allahverdiyevin bütöv şəxsiyyət kimi ən səciyyəvi xüsusiyyətlərdən biri də alimin yüksək yumor hissinə malik olmasıdır. Müdrik insanlar tarix boyu daim digərlərinin könlünü oxşamaq, onların ruhuna dinclik bəxş etmək, çöhrələrində xoş abu-hava yaratmaqla da seçilmiş, hörmət və diqqətəlayiq olmuşlar. Bayram müəllimi tanıyan hər bir insan onun necə xoş əhval-ruhiyyəli, sadə, gülərüz, dərin yumor hissinə malik bir insan olduğunu yaxşı bilir. Onun yaxınlarının, doğmalarının, işlədiyi kollektivin, tələbələrinin, aspirantlarının, doktorant və dissertantlarının xeyir işlərində, müxtəlif məclislərində iştirakı, çıxışları, etdiyi dərin yumor dolu söhbətləri hər kəsin yaddaşında dərin iz buraxır.

Ömrünün 55 ilini auditoriyalarda keçirən qocaman alim, müdrik pedaqoq Bayram Allahverdiyevin kitabşünaslar nəslinin yetişməsində əvəzsiz xidmətləri bu gün də davam etməkdədir. O, ömrünün bu müdriklik çağında da bütün bilik və bacarığını gənc nəslin təlim və tərbiyəsinə həsr edərək, yüzlərlə tələbəyə təhsil yolunda bələdçilik edir, qəlbinin nuru, əqlinin ziyası ilə gələcəyin neçə-neçə mütəxəssinin yolunu işıqlandırır.

Mən tarix elmləri doktoru, professor Bayram Allahverdiyevi anadan olmasının 80-ci illiyi münasibətilə ürəkdən təbrik edir, ona ən xoş arzularımı yetirir, möhkəm can sağlığı, fəaliyyətində yorulmazlıq diləyir, ömür pillələri ilə YÜZ YAŞA doğru deyirəm!